# “InnoWeek - İnnovasiya Həftəsi” (18-24 oktyabr 2019-cu il) barədə

# HESABAT

**http://innoweek.az/**

*Ölkəmizdə innovativ ideyaların yayılması, startap hərəkatının genişləndirilməsi, gənclər arasında innovativ düşüncə tərzinin inkişaf etdirilməsi məqsədilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzi ilə birgə cari ilin 18-24 oktyabr tarixlərində Bakıda ikinci “InnoWeek – İnnovasiyalar Həftəsi” keçirilmişdir.*

*“InnoWeek” çərçivəsində ölkəmizdə innovasiya ekosisteminin formalaşdırılması prosesinin sürətləndirilməsi, gənclərin innovasiya sahələrinə marağının artırılması, o cümlədən, startap ideyalarının reallaşdırılmasına dəstək göstərilməsi istiqamətində müxtəlif yerli və beynəlxalq tədbirlər təşkil edilmişdir:*

***"I2B – İdeyadan Biznesə" finalı (18 oktyabr, Heydər Əliyev Mərkəzi) http://www.i2b.az/***

*Cari ilin 18 oktyabr tarixində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, İnnovasiyalar Agentliyi, “Azercell” və “Microsoft” şirkətləri tərəfindən birgə reallaşdırılan “İ2B – İdeyadan Biznesə” layihəsinin respublika finalında Bakı və region finalçıları arasından 2019-cu il üzrə qaliblər müəyyən edilmişdir.*

*Qeyd edək ki, ölkəmizin 12 regionunda keçirilən startap turlarına 153 komanda, 2000 iştirakçı qatılmış, startap turları zamanı dövlət qurumlarının, müxtəlif inkubasiya mərkəzlərinin, texnoparkların, eləcə də nüfuzlu İKT şirkətlərinin nümayəndələri iştirakçılar üçün təlim və seminarlar təşkil edilmiş, onlara startap ekosistemi, ideyanı biznesə çevirməyin yolları barədə məlumat verilmişdir.*

*Bakı, Sumqayıt, Şamaxı, Şəki, Zaqatala, Tovuz, Göyçay, Gəncə, Lənkəran, Mingəçevir, Sabirabad və Naxçıvanda təşkil olunmuş startap turlarında 17 komanda yarımfinala keçmiş, sonuncu seçim mərhələsində uğur qazanan 10 komanda – “Heal With” (Bakı), “Health bag” (Göyçay), “PayPort” (Naxçıvan), “Palliativ Plus” (Bakı), “Buqələmun” (Bakı), “OSHE-01” (Şirvan), “Peşəkar” (Naxçıvan), “Nano Desal” (Bakı), “Biobone” (Gəncə), “Agroshare” (Bakı) isə “İ2B – İdeyadan Biznesə” layihəsinin respublika finalında mübarizə aparmışdır.*

*Jüri tərəfindən ideyanın unikallığı, bazar potensialı, investisiyanın mənfəət müddəti, ilkin xidmətin/prototipin hazırlanmasına tələb olunan müddət, komandanın ideyanı gerçəkləşdirmə qabiliyyəti kimi meyarlar qiymətləndirilmiş, “I2B – İdeyadan Biznesə” layihəsinin 2019-cu il üzrə qalibi “Heal With” komandası, 2-ci yerin sahibi Buqələmun komandası, 3-cü yer isə Palliativ Plus komandası olmuşdur*

***“RoboDay” festivalı (19 oktyabr, Heydər Əliyev Mərkəzi)***

*“InnoWeek – İnnovasiya həftəsi” çərçivəsində 19 oktyabr 2019-cu il tarixində Heydər Əliyev Mərkəzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və İnnovasiyalar Agentliyinin təşkilatçılığı, AREA – Azərbaycan Robototexnika Mühəndisliyi Akademiyası, “Sumaks Academy”, “Engineering for kids” və “Mars Academy”nin tərəfdaşlığı ilə “Roboday” festivalı keçirilmişdir.*

*“Robopark” layihəsinin tərkib hissəsi olan festivalda müxtəlif robotlarla ünsiyyət qurmaq imkanı yaradan sərgilər, robotexnika sahəsində tətbiq və əyləncə zonası ilə təchiz edilmiş stendlər təşkil olunmuş, eyni zamanda, gənc nəslin dron və robotlarla ilkin tanışlığı, ümumilikdə robototexnika sahəsi üzrə maarifləndirilməsi məqsədilə müxtəlif təlimlər, o cümlədən “Dron”, “Robofutbol” və “Robosumo” yarışları keçirilmiş, robot şouları nümayiş olunmuş, əyləncə zonasında “Formula 1”-in avtomobil simulyatorları yerləşdirilmişdir.*

*AREA tərəfindən “WRO – Dünya Robot Olimpiadası” yarışı üzrə “Regular” kateqoriyası üçün ayrıca yarış meydançası qurulmuş, gələcəyin yenilikçi texnologiya mühəndislərinin yetişməsinə töhfə vermək, kiçik yaşlardan bu sahəyə maraq aşılamaq məqsədilə STEAM (Science, Technology, Engineering, Art, Math – Elm, Texnologiya, Mühəndislik, İncəsənət, Riyaziyyat) təhsil proqramları barədə məlumat verilmişdir.*

*Festivalı “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə şəhid övladları, müxtəlif məktəblərin şagirdləri, Uşaq evlərinin sakinləri də ziyarət etmişlər.*

***“Bakı E-ticarət Forumu-2019” (21-22 oktyabr, Heydər Əliyev Mərkəzi) http://beforum.az/***

*Cari ilin 21-22 oktyabr tarixlərində “InnoWeek – İnnovasiya həftəsi” çərçivəsində Heydər Əliyev Mərkəzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının, Avropa Birliyinin təşkilatçılığı, “PAŞA Bank”ın tərəfdaşlığı ilə 2-ci “Bakı Elektron Ticarət Forumu (BEF – 2019)” keçirilmişdir. Forumda beynəlxalq təşkilatların, dövlət qurumlarının, ictimai təşkilatların nümayəndələri, mikro, kiçik və orta sahibkarlar, investorlar, ekspertlər, startaplar iştirak etmişlər.*

*Ölkəmizdə artıq ikinci dəfədir keçirilən tədbir elektron ticarət sahəsinin son trendləri və müsbət tendensiyaların müzakirəsi üçün mühüm platforma rolunu oynamış, forumun ilk günündə elektron ticarətin müxtəlif istiqamətləri üzrə 4 sessiya təşkil edilmişdir.*

*“Hökumət və hökumətlərarası yanaşmada elektron ticarətin tənzimləmə siyasəti” adlı sessiyada milli strategiyalar, elektron ticarətin asanlaşdırılması, elektron idarəetmənin təsiri və beynəlxalq əməkdaşlıq müzakirə olunmuşdur.*

*“Elektron ticarət infrastrukturunda yeni texnoloji trendlər: perspektivlər və təhdidlər” sessiyası kibertəhlükəsizlik, elektron imza, süni intellekt, robototexnika və blokçeyn mövzularını əhatə etmişdir.*

*Saxtakarlıqdan qorunma, kriptovalyuta, bank köçürmələri, elektron cüzdan məsələləri isə “Onlayn ödəmə sistemləri və rəqəmsal həllər” sessiyasının müzakirə mövzuları olmuşdur.*

*“Ağıllı sərhədlər: ticarət, turizm və logistika üçün imkanlar” sessiyasında logistika və ticarət siyasəti, rəqəmsal nəqliyyat dəhlizləri, gömrük məsələləri üzrə təcrübə mübadiləsi aparılmışdır.*

***“İnnovasiya ekosisteminə siyasi baxış mövzusunda dəyirmi masa” (22 oktyabr, ADA Universiteti)***

*ADA Universitetində “InnoWeek – İnnovasiya həftəsi” çərçivəsində cari ilin 22 oktyabr tarixində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (UNECE) və BMT-nin İnkişaf Proqramının təşkilatçılığı ilə “İnnovasiya ekosisteminə siyasi baxış” mövzusunda dəyirmi masa təşkil olunmuşdur.*

*Tədbirdə innovasiya ekosistemi iştirakçıları - hökumət və qeyri-hökumət qurumları, inkubasiya-akselerasiya mərkəzləri və digər əlaqədar təşkilatların rəhbər və nümayəndələri iştirak etmişlər.*

*Dəyirmi masa ətrafında görüşdə UNECE “Subregional İnnovasiya Siyasəti” layihəsi ilə əlaqədar Azərbaycanda əldə edilmiş nəticələr təqdim edilərək müzakirə olunmuşdur.*

*Qeyd edək ki, UNECE "Subregional İnnovasiya Siyasəti" layihəsinin məqsədi Şərqi Avropa və Qafqaz regionu üzrə innovasiya siyasətini, innovativ proseslərinin həcmini və keyfiyyətini qiymətləndirməkdən ibarətdir və layihə həmçinin region iqtisadiyyatında məhsuldarlıq və rəqabətədavamlılığın artırılmasına xidmət edir.*

***"Eurasia Innovation Day" platforması (23 oktyabr, Heydər Əliyev Mərkəzi)***

*23 oktyabr 2019-cu il tarixində Heydər Əliyev Mərkəzində "InnoWeek – İnnovasiya həftəsi" çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və "Huawei" şirkətinin birgə təşkilatçılığı ilə "Eurasia İnnovation Day" adlı tədbir keçirilmişdir.*

*Dialoq platforması rolunu oynayan tədbirdə siyasətçilər, özəl sektor nümayəndələri, elm xadimləri və media nümayəndələri iştirak etmişlər.*

*"Eurasia Innovation Day" çərçivəsində 3 panel təşkil edilmişdir.*

*"Rəqəmsal əlaqə" adlı ilk paneldə mövzu ətrafında maraqlı məruzələr dinlənilmiş, fikir mübadiləsi aparılmışdır.*

*İkinci panel Avrasiya ölkələrində milli rəqəmsal iqtisadiyyatın inkişaf imkanları və problemləri mövzusunu əhatə etmişdir.*

*Üçüncü paneldə isə innovasiya və texnologiya istiqaməti müzakirə predmeti olmuşdur.*

***"Innovation AWARDS Gala" mükafatlandırma mərasimi (23 oktyabr, Heydər Əliyev Mərkəzi)***

*Cari ilin 23 oktyabr tarixində Heydər Əliyev Mərkəzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və "Huawei" şirkətinin birgə təşkilatçılığı ilə "Innovation Awards Gala" mükafatlandırma mərasimi keçirilmişdir.*

*"InnoWeek – İnnovasiya həftəsi" çərçivəsində təşkil olunmuş mükafatlandırma mərasimində çıxış edən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə bildirib ki, bu axşam möhtəşəm məkanda ilk dəfə olaraq Azərbaycan İnnovasiya Mükafatı təqdim olunur. Mükafat Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən innovasiya ekosisteminin iştirakçılarını dəstəkləmək məqsədilə təsis olunmuşdur.*

*"İlin innovasiya ekosistemi təmsilçisi", "İlin innovasiya layihəsi", "İlin innovasiya tədbiri", "İlin influenseri" və "İlin startapı" nominasiyaları üzrə qaliblərin adları açıqlanmışdır.*

*"İlin innovasiya ekosistemi təmsilçisi" "İnnoland" İnkubasiya və Akselerasiya Mərkəzi, "İlin innovasiya layihəsi" "STEM Azərbaycanda", "İlin innovasiya tədbiri" "Azercell" rebrendinqi, "İlin influenseri" Fərida Əsgərzadə, "İlin startapı"nın "Keepface" platforması seçilmişdir.*

***"Kaspersky" Security Day" platforması (24 oktyabr, JW Mariott Hotel)***

*"InnoWeek – İnnovasiya həftəsi" çərçivəsində cari ilin 24 oktyabr tarixində "Kaspersky Security Day" təşkil olunmuşdur.*

*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə "Kaspersky" şirkəti ilə birgə keçirilən tədbirdə internetdən təhlükəsiz istifadə ilə bağlı mütəmadi olaraq həyata keçirilən maarifləndirmə və məlumatlandırma tədbirləri, müxtəlif təhsil müəssisələrində uşaqların, müəllim və valideynlərin sahə üzrə maarifləndirilməsi məqsədilə təşkil olunan təlimlər və tədbirlər barədə məlumat verilmişdir.*

*Daha sonra "Kaspersky" şirkətinin mütəxəssisləri tərəfindən Azərbaycanda istifadəçilərin qarşılaşdığı kibertəhlükələr barədə geniş məlumat verilib, son statistik göstəricilər diqqətə çatdırılmışdır.*

*Eyni zamanda, tədbirdə kibertəhlükələrdən qorunmaq üçün istifadəçilərin riayət etməsi tövsiyə olunan əsas qaydalar barədə danışılmışdır.*

***Ümumilikdə 2870 iştirakçı, 221 xarici qonaq,***

***73 spiker, 120-dən artıq təşkilat***